# Sosiallaşmada yeniyetmələrin qarşılaşdıqları çətinliklərin psixoloji xüsusiyyətləri

**Leyla Həsən qızı Seyidova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** leyla.seyidli98@gmailşcom

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** sosiallaşma, psixoloji çətinliklər, daxili və xarici maneələr, strategiya, münaqişə

**Ключевые слова:** социализация, психологические трудности, внутренние и внешние барьеры, стратегия, конфликт

**Key words:** socialization, psychological difficulties, internal and external barriers, strategy, conflict

Çətinlik anlayışı mahiyyətinə, təbiətinə və təhlil üsullarından asılı olaraq müxtəlif mövqelərdə nəzərdən keçirilir. Ümumpsixoloji çətinliklər kontekstində emosional, koqnitiv və taktiki kimi təsnif olunur. Fəaliyyət yanaşmasında motivasiyalı və əməliyyat çətinliklərini fərqləndirirlər. Həmin çətinliklər koqnitiv, affektiv və davranış sahələrində təzahür edir.

A. Xoll növbəti çətinlikləri müəyyən etmişdir:

— *Perseptual maneələr*. Bu maneələr insanın olmayan bir şeyi pis qavraması ilə əlaqədar yaranır.

— *İntellektual maneələr*. Bu maneələr həddindən artıq tez və enerjili şəkildə öz ideyalarına tənqiddir.

— *Emosional maneələr*. Bu maneələr ətrafdakıların rişxəndinə, gülüşünə səbəb olmamaq, özünə kifayət qədər inamlı olmamaq, öz tənqidi qabiliyyətindən həzz almaqla bağlıdır.

P. Xill həm psixoloji, həm də orqanik qaydalardakı çətinlikləri müəyyən etmişdir:

— *Şəxsi qaydalardakı maneələr.* Bu çətinliklər çevikliyin olmaması ilə əlaqədardır. Ayrı-ayrı əşyalarla və konsepsiyalarla tanışlıq onların funksiyalarındakı bəzi dəyişikliklərdən yaranır ki, bu da onların dəyərini  məhdudlaşdırır.

— *Alətlərin gücü*. Burada yeni problemlərə keçid üçün əvvəlki metod və üsullardan, həmçinin obrazlı fikirlərdən istifadə nəzərdə tutulur. Məsələlərin həllinə keçidin yaranması çox vaxt ona aparıb çıxarır ki, yeni problemlər köhnə metodlarla həll edilir.

— *Dar praktiki yanaşma*. Düzxətli yanaşmalar onunla xarakterizə olunur ki, problemi hərtərəfli şəkildə düşündükdən sonra birbaşa faktlar toplamağa başlayırıq və tez bir zamanda onu yerinə yetirməyə çalışırıq.

*Həddsiz dərəcədə ixtisaslaşma.* İxtisaslaşma o dərəcədə ətarfdakıları məhdud- laşdıra bilər ki, insanın real aləmi başa düşüb dərk etməsi o qədər də dərin olmaya bilər. Belə ki, müxtəlif fənlərdə ideyaların axtarışında maneələr yarana bilər.

*Avtoritetlərin təsiri.* Çox vaxt bu dərəcədə olan insanlar tanınmış avtoritetlərin mühakimələrinin təsiri altında olurlar. Onların aparıcı rolunu qəbul edirlər. Odur ki, uğurlu fəaliyyəti həyata keçirmək üçün özlərindəki keyfiyyəti təkmilləşdirə bilmirlər.

*Tənqiddən qorxu.* Sosiallaşma təkcə cəmiyyətin norma və dəyərlərinin deyil, həm də özünün şəxsi modellərinin hazırlanmasıdır.

V.V. Stolin çətinlikləri daxili maneələr kimi səciyyələndirərək onu belə müəyyən edir ki, bu şəxsiyyətin xüsusi xassələri olub müəyyən situasiyalarda onların aktiv hərəkətlərinin zəruriliyini təzahür etdirir.

Qorxaqlıq cəsarət və şücaət tələb edən hərəkətdə, cəsarətsizlik cəsarət tələb edən hərəkətlərdə, mənfi sanksiyaların gözlənilməsi ətrafdakıların qiymətlərindəki uyğunsuzluqda və pozğun hərəkətlərdəki maneələrdir. Hər bir şəxsi keyfiyyətlərdə daxili maneə qismində digər keyfiyyət durur ki, həmin şəraitdə o maneə yaratmır, əksinə hərəkətlərin həyata keçirilməsini şərtləndirir.

*Şəxsiyyətdaxili maneələr* V.V. Stolinin fikrincə, insanın şüuruna ikili üsulla daxil olur: birincisi, daxili maneələr mühüm həyati əhəmiyyətli məqsədlərin, uğurların həyata keçirilməsinə maneəçilik yaradır. Habelə insan dərk edir ki, maneələr özünüreallaşdırmada və mənfi şəxsi fikirlərin yaranmasında maneələr yaradır.

Bəzi tədqiqatçılar şəxsiyyətin müstəqil mühakimələrinə maneə yaradan çətinlikləri şəxsi təhsil kimi qiymətləndirirlər. Onların fikrincə, psixoloji çətinliklər ona görə təhlükəlidir ki, şəxsiyyətin özü haqqında mühakimələrinə ətrafdakılar tərəfindən maneəşilik yaradır.

Z.A. Noliu baş verən çətinliklərin modelə sxemlərini təqdim edir ki, onlar ehtimal edilən travmalı təsirdən şəxsi "Mən"ə əsaslanır. Ətrafdakı insanlar tərəfindən verilən qiymətlər şəxsiyyətin keyfiyyət və dəyişmələrinin harmoniyası haqqında təsəvvürlərini şübhə altına alır. Çətinliklər daxil olmaqla, həmişə müsbət olmağa cəhd göstərilməklə nəinki mürəkkəb özünüqiymətləndirmə sistemi saxlanılır, həm də şəxsiyyətin strukturu dəyişməz olaraq qalır.

İ.A. Zimneyə görə, ünsiyyətdə tərəfdaşların yaş xüsusiyyətləri müəyyən çətinliklərə səbəb ola bilər. Bu çətinliklər yeniyetməlik yaş dövründə daha aydın şəkildə özünü göstərir. Böyüklərlə ünsiyyətdə yaranan çətinliklər yeniyetmələrin fikrincə, onların daxili aləmi yaşlılar üçün aydın olmadığı və onları düzgün başa düşmədikləri səbəbindən yaranır. V.A. Kan-Kalik qeyd edirdi ki, yaşlılar uşağın necə yaşadığını başa düşmürlər ki, bu da yaş maneələrinin yaranmasının əsas səbəblərindəndir. Bir çox alimlərin (L.A. Povarnisinin, V.A. Kan-Kalikin və s.) tədqiqatlarında çətinliklərin yaranma səbəbləri xarakterizə edilir. L.A. Povarnisinin, İ.A. Zimneyin fikrincə, yeniyetməlik yaş mərhələsində çətinliklərin yaranması labüddür.

Psixoloji çətinliklərdə üç amil: daxili çətinliklər, xarici maneələr və şəxsiyyətlərarası birgə fəaliyyətdə çətinliklər özünü aydın göstərir. Çətinliklər müxtəlif psixoloji və sosial-psixoloji effektlərdən yarana bilər. Onlar xaricən passiv nitq və ya müdafiə reaksiyalarının motorikasının pozulması kimi təzahür edə bilər. Psixoloji vəziyyətin nöqteyi-nəzərindən çətinliklər mənfi emosiyalara, frustrasiyaya, qeyri-adekvat affektlərə səbəb ola bilər. Sosial-psixoloji planda çətinliklər konfliktlərin səbəbi kimi münaqişələrin əsas əlamətlərindəndir. Çətinliklər qrupdaxili prosesləri pozub yeniyetməni həmin qrupdan təcrid edə bilər. Çətinliklərin psixoloji ədəbiyyatda çoxmənalı, çoxaspektli anlayışları göstərilir. Məsələn, çətinliklərin psixoloji təbiətinə görə insana bir çox işləri yerinə yetirməsinə maneə olan daxili çətinliklərdir. Belə çətinliklər insanların işgüzar və şəxsi qarşılıqlı münasibətlərində yaranır, onlar arasında aşıq və etibarlı münasibətlərin qurulmasını ləngidir.

Çətinliyin psixologiyası psixoloji vəziyyət olub subyektin qeyri-adekvat passivliyində təzahür edir ki, bu da müəyyən işlərin yerinə yetirilməsinə maneə yaradır. Psixoloji çətinliklər situasiyanın, faktların, qanunauyğunluqların düzgün qiymətləndirilməsinə, iş üsullarının seçiminə, problemlərin həlli strategiyalarına, innovasiyalara maneə yaradan sosial təcrübəyə mənfi təsirdir.

Deməli, psixoloji çətinliklər qeyri-adekvat, passiv, bu və ya digər işlərin icrasına əngəl yaradan psixoloji vəziyyətdir. Həmin çətinliklərin emosional mexanizmi mənfi təəssüratların və

yönəlişliyin daha da artması ilə səciyyələnir. Fikrimizcə, psixoloji çətinliklər anlayışının mahiyyəti hələ kifayət qədər tam şəkildə müəyyən edilməmişdir.

Yeniyetməlik yaş dövründə sosiallaşmada yaranan psixoloji çətinliklər bu və ya digər sosial qruplarda qəbul edilməyən sosial norma və dəyərlərlə, daxili maneələrlə yeniyetmələrin şüurunda əks olunur. Belə ki, R.X. Şakurov qeyd edir ki, çətinlik həyatın universal və həmişəlik atributudur (3, s. 5). Alim tədqiqatçı R.X. Şakurov çətinliklərin növbəti funksiyalarının müəyyən etmişdir:

— *Stabillik.* Çətinlik işi dayandırır, onu stabilləşdirir.

— *Korreksiya.* Çətinliklərlə qarşılaşanda hərəkət istiqamətini dəyişdirir.

— *Enerjili.* Hərəkətlərin enerjisi çətinliklərin qarşısının alınmasının təsiri altında toplanır.

— *Hissələrə bölünmə.* Çətinliklər hərəkəti hissələrə bölür, onun ölçüsünü müəyyənləşdirir.

— *Mobilləşmə.* Canlı orqanizm maneələrlə qarşılaşdıqda özünün enerjisini və digər resurslarını çətinlikləri aradan qaldırmaq üçün mobilləşdirir.

— *İnkişaf.* Təkrar mobilləşmədə dəyişikliklər baş verdikdə orqanizm möhkəmlənir ki, bu da canlı sistemin funksional imkanlarını artırır, onda yeni keyfiyyətlər yaradır.

— *Ləngimə.* Çətinlik hərəkəti ləngidir, aktivliyi məhdudlaşdırır.

— *Məhrum etmə.* Çətinlikləır orqanizmin həyat fəaliyyətini həmişə məhdudlaşdırır, funksional imkanları zəiflədir (3, s. 5-6).

V.İ. Antonyukin tədqiqatlarında çətinliklərin passiv funksiyalarını fərqləndirmişdir. Tədqiqatçı alim psixoloji çətinliklərin müsbət amillərini araşdırmışdır:

— ***birincisi,*** çətinliklər çox vaxt düşünülməmiş məsələlərin həyata keçirilməsinə maneə yaradır. Bu onu göstərir ki, onlar üçün obyektiv şərtlərin və ya müvafiq tələbatların ödənilməsi üçün münasib şərait yaradılmamışdır. Həmçinin onlar ilkin fikirləri təhrif edir, yeniliklərdə modifikasiyaların qarşısını alır, insanın həyat fəaliyyəti üçün zərərli olan yenilikləri qoruyub saxlayırlar.

— ***ikincisi,*** alimin fikrincə, çətinliklər katalizator funksiyasının yerinə yetirirlər. Onlar fəaliyyəti aktivləşdirir, dayanmadan cəhd göstərməyə təhrik edir, ilkin fikirlərdəki qüsurları aşkar edib daha təkmil variantlar tapmağa yönəldir.

— ***üçüncüsü,*** psixoloji çətinliklər indikator funksiyasının yerinə yetirir, zəif icra edilmiş məsələlər barədə operativ məlumat verir, kifayət qədər işlənilməmiş elementləri aşkarlayır.

Çətinliklər tələbatı fəallaşdırır, onu aktiv vəziyyətə gətirir, fəaliyyətin psixogenezini təmin edirlər. Belə nəticəyə gəlmək olar ki, mənfi çətinliklər insana müsbət təsir edir. Bu funksiyalar yeniyetmələrin sosiallaşmasına ikiqat təsir göstərə bilər. Bununla yanaşı qrupun mənfi təsirində qeyri-normativ davranış qaydalarında pozitiv funksiyanı yerinə yetirir. Konkret situasiyalarda çətinliklərin funksiyalarını qiymətləndirmək mümkündür.

**Məqalənin aktuallığı.** Çətinliklər yeniyetmənin tələbatını aktivləşdirir, adaptasiyasını sosiallaşmasını sürətləndirir.

**Məqalənin elmi yeniliyi.** Elmi məqalədə çətinliklərin psixoloji mahiyyəti açıqlanır, müxtəlif alimlərin çətinliklərlə bağlı təsnifatları müqayisə edilir. sosiallaşmada yeniyetmələrin qarşılaşdıqları çətinliklərin psixoloji xüsusiyyətləri də araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Иваненков С.П. Проблемы социализация современной молодежи. 2-е изд. доп. СПб, Синтез-Полиграф, 2003.

2. Реан А.А. Психология личности. Социализация, поведение, общение / А.А. Реан. - М.: Прайм-Еврознак, 2004.

3. Шакуров Р.Х. Барьер как категория и его роль в деятельности // Вопросы психологии. 2001. №1. С.3-18.

4. Ярцев Д.В. Особенности социализации современного подростка // Вопросы психологии. - 1998. - № 6. - с. 54-58.

**Л.Х. Сеидова**

## Психологические особенности трудностей, с которыми сталкиваются подростки в социализации

## Резюме

В научной статье объясняется психологическая природа трудностей. Авторская классификация различных видов затруднений разработана автором последовательно. В статье рассматриваются внутренние и внешние барьеры и их научное объяснение. Также автор рассматривает психологические особенности трудностей, с которыми сталкиваются подростки в социализации.

**L.H. Seyidova**

## Psychological features of the difficulties faced by adolescents in socialization

## Summary

The scientific article explains the psychological nature of the difficulties. The classification of different scientists on the types of difficulties has been developed by the author in sequence. The article covers internal and external barriers and their scientific explanation. The author also examines the psychological features of the difficulties faced by adolescents in socialization.

**Redaksiyaya daxil olub:** 05.04.2022